# Fındıqçılıq gəlirli sahədir

Azərbaycanda, o cümlədən rayonumuzda fındıqçılığın qədim tarixi vardır. Bu təsadüfi deyil. Fındıq məhsuluna bütün dövrlərdə istehlakçı tələbatı yüksək olmuşdur. Fındıq onu əkib becərənlərə yaxşı gəlir gətirməklə yanaşı insan orqanizminə yaxşı təsir edən, immuniteti möhkəmləndirən, beyinin funksiyasını artıran, qan dövranını yaxşılaşdıran bir vasitə kimi də şöhrət qazanmışdır. Məlumdur ki, İkinci dünya müharibəsində ağır şəraitdə döyüşən, bəzən ərzaq qıtlığı çəkən sovet əsgərlərinin xəstəliklərə qarşı immunitietini möhkəmləndirmək üçün onlara müəyyən miqdarda fındıq meyvəsi də verirdilər. Bu, əsgərlərdə aclığın aradan qaldırılması ilə yanaşı, onların fiziki sağlamlığının qorunmasına da kömək edirdi.

Müasir dövrdə fındıq bütün keyfiyyətləri ilə yanaşı, həm də, xaricə yaxşı ixrac olunan, ölkəyə valyuta daxilolmalarında xüsusi çəkiyə malik olan bir məhsul kimi tanınır.

Yuxarıda qeyd olunan keyfiyyətlərinə görə ölkəmizdə tütünçülük, pambıqçılıq və baramaçılıqla bərabər fındıqçılığın da sürətli inkişafına dövlət dəstəyi artmışdır.

Fındıqçılığın perspektivi və respublika iqtisadiyyatında əhəmiyyəti Prezident İlham Əliyevin sədrliyi ilə Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində bir daha vurğulanıb. Müşavirədə bu sahəyə gələcəkdə də hərtərəfli dövlət dəstəyinin göstəriləcəyi bildirilib, fındıq bağlarının sahəsinin 80 min hektara çatdırılması istiqamətində tapşırıqlar verilib.



Fındıqçılığın inkişafı istiqamətində atılmış ən əhəmiyyətli addımlardan biri Prezident tərəfindən 2016-cı il noyabrın 16-da imzalanmış «İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamdır. Sərəncamla fındıqçılığın inkişafının sürətləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi və məhsul istehsalına əhalinin marağının artırılması məqsədi ilə fındıq pöhrələrinin tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədi ilə 700 min manat vəsait ayrılıb.

Həyata keçirilən tədbirlər çərçivəsində fındıq bağlarının sahəsi 2016-cı ildə 2015-ci illə müqayisədə 18204 hektar genişləndiriləlrək 55116.6 hektara çatdırılıb 2016-cı ildə bar verən bağlardan 34270.7 ton məhsul istehsal edilib, hektardan məhsuldarlıq 10.7 sentner olub.

İndiyədək Sahibkarlığa Kömək Milli Fondu tərəfindən fındıqçılığın inkmişafı ilə bağlı 50-dən çox sahibkara 10 milyon manatadək ( o cümlədən, fındıq emalı ilə bağlı 37 sahibkara 6,7 milyon manat) güzəştli kredit verilib və bu kreditlər hesabına 1500-dən çox yeni iş yerinin açılması imkanı yaranıb.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2016-cı ildə Azərbaycandan dünyanın 30 ölkəsinə ümumi həcmi 14862,1 ton və ya 105013 min ABŞ dolları həcmində qabıqlı və qabığı təmizlənmiş fındıq ixrac olunub. 2015-ci illə müqayisədə ixracda artım 2636,1 ton və ya 14744,1 min ABŞ dolları təşkil edib.

Rayonumuzda da fındıqçılığın inkişafına böyük diqqət yetirilir. Əlavə olaraq rayonda 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Artıq 900 hektardan artıq ərazidə yeni fındıq tingləri əkilmişdir. Qarşıdakı əkin mövsümünə ciddi hazırlıq işləri gedir.

✍ **Rais RƏŞİDOV.**
**«Qəbələ»**

# Zəhmət harda, çörək orda

«Qəbələ» qəzetinin ötən saylarında iş adamı Fikrət Məmmədovun əkdirdiyi tütün sahələri haqqında yetərincə söhbət açmışdıq. Qərara gəldik ki, yenə də həmin sahələrə baş çəkək. Bu dəfə söhbətimiz qabaqcıl birqadir Alışova Tənzilə xanımla oldu. Briqadir qeyd elədi ki, hal-hazırda tütündə dördüncü qırım aparılır. Bütün 4 briqadada qırılan tütünlər tütün bağlama məntəqəsinə daşınır və burada ipə düzülür. Havaların əlverişli keçməsindən maksimum istifadə edən tütünçülər bu vaxta kimi dövlətə 50 ton quru tütün təhvil verə biliblər. Daha sonra briqadir tütün bağlama məntəqəsində 15 işçinin çalışdığını, bu işçilərdən Aydagülüm Alışovanın, Ramilə Məmmədovanın, tütün təhvil verilmə işində isə Rəhimə Məmmədovanın işindən olduqca razı qaldığını qeyd elədi.

Tütünün suvarılması da müntəzəm aparılır. Bu işdə də suçulardan Maarif Dadaşovun və Şəmistan Qasımovun işi xüsusi ilə gözə çarpır.

Tütün sahələrində gedən qızgın işi gördükcə adamın ürəyi dağa dönür. Fikirləşirsən ki, həqiqətən, «zəhmət harda, çörək də orda» Mən tütünçülərə bir daha işlərində uğurlar arzulayıb oradan xoş təəssüratlarla ayrıldım.

✍**Cəlil KOMRADLI.**

# 68,5 min ton taxıl tədarük edilib

Rayonda taxıl biçini başa çatdırılıb və ümumilikdə 68 min 588 ton məhsul tədarük olunub. Məhsuldarlıq hər hektar üzrə orta hesabla 32,1 sentner təşkil edib.

Bu il rayonda kənd təsərrüfatı bitkilərinin əkinində xeyli yenilik tətbiq edilib. Belə ki, ərzaq bitkilərinin əkini artırılıb, ilk dəfə olaraq 16,5 hektar sahədə qarabaşaq əkilib və 24 ton məhsul tədarük olunub. Həmçinin, rayonda ilk dəfə olaraq 26 hektar sahədə şəkər çuğunduru və bir hektar sahədə çəltik əkilib. Heyvandarlığın inkişafını nəzərə alan fermerlər yemə olan tələbatın ödənilməsi üçün boş və istifadəsiz qalan torpaqları dövriyyəyə cəlb etməklə yem bitkilərinin əkin sahəsini xeyli genişləndiriblər.

Hazırda payızlıq əkin üçün ciddi hazırlıq işləri görülür.

**«Qəbələ»**

# 16 min 263 yeni iş yeri açılıb

Rayonda işsiz əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlər uğurla davam etdirilir. Bu ilin əvvəlindən bəri Qəbələ rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçən 970 nəfərdən 395-i münasib işlə təmin edilib, 20 nəfərə işsizlik statusu verilib, 23 işsiz vətəndaşa isə müavinət təyin olunub.

İşlə təmin olunan şəxslər əsasən rayon mənzil istismar və kommunal müəssisələr kombinatında (108 nəfər), Qəbələ Təmir Tikinti Şirkəti MMC-də (110 nəfər), Ağsu Regional Qaz İstismarı İdarəsinin Qəbələ şöbəsində (25 nəfər), 6 saylı Texnoloji Nəqliyyat Departamentində (10 nəfər), "Azərişıq" ASC-nin Qəbələdəki Şimal-Qərb Regional Elektrik Təchizatı və Satışı İdarəsində (7 nəfər), Qəbələ Beynəlxalq Hava Limanında (20 nəfər) işlə təmin edilib. Qeyri məşğul əhalidən 20 nəfər işaxtaran qadın "Xalçaçılıq" peşə hazırlığı kursuna cəlb edilib, onlardan 9 nəfəri işlə təmin olunub.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" ölkə başçısının Sərəncamının icrası ilə əlaqədar Qəbələ rayonunda müvafiq işlər davam etdirilir. Bu ilin ötən dövrü ərzində Qəbələ rayonundan 3-ü xidmət, 13-ü kənd təsərrüfatı sahəsi olmaqla 16 nəfər özünüməşğulluq proqramının iştirakçısı öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin olunublar.



Həmin vətəndaşlardan 8 nəfəri ətlik heyvandarlıqla, 4 nəfəri südlük heyvandarlıqla, 1 nəfəri arıçılıqla, 1 nəfəri kiçik iaşə, 1 nəfəri kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfəri isə avtomobil təmiri sahəsində fəaliyyət göstərir.

Özünüməşğulluq proqramının iştirakçılarından 7 nəfərə buzovlarla birlikdə 27 baş iri buynuzlu heyvan, 5 nəfərə 122 baş xırdabuynuzlu heyvan, 1 nəfərə kompüter və çap avadanlığı, 1 nəfərə 15 arı ailəsi, 1 nəfərə avtomobil təmiri üçün alətlər, 1 nəfərə isə kiçik iaşə obyekti üçün tələb olunan avadanlıqlar verilib.

Qeyd edək ki, bu ilin 7 ayı ərzində Qəbələ rayonunda 1198 yeni iş yeri açılıb ki, onların hamısı daimidir. 2003-cü ilin oktyabr ayından 2017-ci ilin avqustunadək rayonda 14.464-ü daimi olmaqla, 16.263 yeni iş yeri açılıb.

**AZƏRTAC**

# Sığorta etibarlı təminatdır

Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrdə sığorta istər iqtisadi, istərsə də sosial sferada mühüm yer tutur. Əhali bazar iqtisadiyyatının əsas inkişaf qanunlarını mənimsədikcə sığorta sisteminə olan ehtiyacı daha yaxından başa düşür. Sığorta olunmaq əmlak itkisi, sağlamlığın itirilməsi və qocaldıqda maddi təminat problemlərindən yaranan narahatçılığın aradan qaldırılması üçün ən yaxşı vasitədir.



Müstəqil dövlətimizdə sığorta işini qaydaya salmaq üçün «Sığorta fəaliyyəti haqqında» Qanun qəbul edilmişdir. 2011-ci ilin 24 iyun tarixində dövlət başçımız cənab İlham Əliyev tərəfindən təsdiqlənmiş «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanunu da sığorta işinin genişlənməsinə şərait yaratmışdır. Bu Qanun «Daşınmaz əmlakın icbari sığortası»nı, «Sərnişinlərin icbari fərdi qəza sığortası»nı «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyytinin icbari sığortası»nı, «Kənd təsərrüfatı bitkilərinin və kənd təsərrüfatı heyvanlarının sığortası»nı əhatə edir.

Bundan başqa sığorta təşkilatları tərəfindən könüllü olaraq bir çox başqa sığorta növləri də həyata keçirilir.

Bununla yanaşı əhali arasında istər icbari, istərsə də könüllü sığorta qaydaları və bunların əhəmiyyəti barədə geniş maarifləndirmə işinin aparılmasına ehtiyac var. Əhalinin bir çoxu sığorta işinin böyük iqtisadi və sosial əhəmiyyətini hələ lazımınca dərk etmədiyindən bu sahəyə maraq göstərmir. Ancaq, hamı başa düşməlidir ki, onun rahat həyatını təmin etmək üçün sığorta ən vacib amillərdən biridir.

✍ **Allahverdi ƏFƏNDİYEV,**
**Qəbələ Rayon Dövlət Sığorta İdarəsinin direktoru.**